**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2024.3.12**

**AYSEL ACALOVA***

# KAMAL ÜMMİ VƏ "HƏZİREYİ-QÜDS" ƏSƏRİ

"*Həzirə-i Qüds" əsəri XV əsr türk şairi Kamal* Ümminin *"Divan"ınında qarşımıza çıxan iki məsnəvidən biridir. Məzmuna görə cənnət əhli ilə cəhənnəm əhli axirətdə ayrıldıqdan sonra Tanrı onları övliyalarla birlikdə cənnətdə Həzirə-i Qüdsdə qəbul edir, qarşılayır və onlara gözəl üzünü göstərir. Əsərdə axirət, cənnət və oradakı həyatın gözəllikləri də təsvir olunur. Bu məsnəvidə şair bədii ifadə vasitələri ilə yanaşı dialoqdan da istifadə etmişdir.*

***Açar sözlər**: Kamal, əlyazma, Qüds, divan, peyğəmbər*

## Giriş

Orta əsr yazarları içərisində yeganə"Divan"ı ilə iz qoyub getmiş nəzm ustalarından biri də Kamal Ümmidir. Əsl adı İsmayıl, təxəllüsü Kamal Ümmi olan şairin qaynaqlarda Qaramanlı olduğu qeyd edilir. Ilkin məlumat Qastamonlu Lətifinin "Təzkirəyi-Şüəra"sındadır (7,286). Bundan başqa M. T. Bursalının "Osmanlı müəllifləri" (2,153), Gibbin "Osmanlı poeziyası tarixi"(4,411), V. M. Qocatürkün (8,282), N.S. Banarlının "Türk ədəbiyyatı tarixi" kitablarında (1, 508), Türk dili və ədəbiyyatı ensiklopediyasında(10,11) Kamal Ümmi haqqında qısa da olsa məlumatlar mövcuddur. Şairin əsərini tədqiq edərkən maraqlı faktlarla üzləşdik. Bunlardan biri təsəvvüfi, alleqorik "Qırx Ərmağan" (9,126) əsəridir. Qaynaqlarda haqqında ayrıca bir əsər kimi bəhs olunmasına baxmayaraq, "Divan"ın mətnindən onun tərkib hissəsi kimi aşkarlayıb, poetik baxımdan təhlil etdik. Sonda "Divan"ın prinsiplərinə zidd olaraq, xüsusi başlıqla ayrılmayan digər bir "Həzireyi-Qüds" əsəri ilə qarşılaşdıq. Bu məsnəvinin mövcudluğunu Şərq əlyazma kataloqları sayəsində öyrəndik və aydın oldu ki, Bəyazid Ümumi kitabxanası, Süleymaniyə kitabxanası (Düyümlü Baba), Süleymaniyə kitabxanası (Yazma Bağışlar) nüsxələrində bu əsər yer almaqdadır. Hətta Topqapı Sarayı muzeyi kitabxanasında muhafizə olunan əlyazma nüsxəsində məsnəvi xüsusi başlıq altında "Hekayəti Həzire-i Qüds" şəklində göstərilmişdir.

## Əsas təhlil

Məlumdur ki, Şərq xalqları ədəbiyyatında çox işlənən janrlardan biri olan məsnəvi irihəcmli nəzm əsərləri üçün münasib forma hesab edilmişdir. Lüğət mənası "cənnət" olan, 144 beyt həcmində, məsnəviyə xas xüsusi qafiyə qurluşuna malik, müctəs bəhrinin "Məfa i lün/ fe i la tün/ mefa i lün/ fe i lün (fa 'lün)" qəlibində yazılmış "Həzireyi-Qüds" aşağıdakı beytlərlə başlayır:

Çü başladuq sözə əvvəl bə- nam-ı bismillah
Ki hər işimizi əbtər qomıya ol Allah (6,40 a).

Bitir: Bu hacətimiz ərş əzim hörmətiçün
Sən et qəbul kəlamı qədim hörmətiçün (6,43 b).

Əsər Hz.Enes tərəfindən rəvayət edilən bir hədisin nəzmlə yazılmış formasıdır. Şair bunu aşağıdakı beytlərlə belə açıqlayır:

Enes rivayət idər Mustafa Muhamməddən
Ol ənbiya vü rəsulü pişəvası Ahmeddən (6,40 a).

***

Haqqa şükr ki, bu görklü hədis tatlu kəlam
Anun inayətilə nəzmə gəldi oldı tamam (6,43 a).

***

Eşit Həzirei-Qüds nə hoş hikayətdür
Esah rivayət ü şirin ü tər 'ibarətdür (6,40 a).

Əsərin qısa şəkildə məzmunu belədir: Axirətdə Uçmaq vəTamu əhli bir-birindən ayrıldıqdan sonra, Cənab-ı Haqq, mürsəllər, vəlilər, nəbilər, şəhidlər və möminlər başda olmaqla bütün Cənnətə girənləri orada xüsusi bir yer olan Həzireyi- Qüdsdə yerləşdirəcək, öz camalını onlara göstərəcəkdir. Allah, Rizvana bu gözəl məkanın qapılarını açdırmaq və bəzəmək üçün Feytoş adlı huriyə göndərir. Feytoş və Rizvanın bəzədikləri Həzirei-Qüdsə bu şəkildə girilir: Hz.Peyğəmbərin sağ yanında Adəm

Peyğəmbər, Adəmlə Hz.Peyğəmbər arasında Əbu Bəkr; sol tərəfində Xəlil Peyğəmbər, Xəlillə Hz.Peyğəmbər arasında Ömər; Hz.Peyğəmbərin arxasında Osman və qarşısında əlində "liva-yı Həmd" olan Əli gedir. Bu vaxt Hz.Peyğəmbər yetmiş nəfis hilat geyinmiş, başında səltənət tacı, əlində nurdan qamçısı ilə, ağ incidən bir "Buraq" üzərində olur:

Muhamməd anda binə bir Buraka əvvəl kim
Yaratmış ola ağ incüdən anı Hayy u Hakim.
***
Mübarək əgninə yitmiş nəfis hüllə giyə
Ki dəgməyə hiç anun gibi hüllə kimsəyə.
***
Həm ura başına tac adı səltənət tacı
Dəxi Həbib ala nurdan əlinə bir qamçı
***
Ol qamçının adı mələk qamçısıdur biləsiz
Bu gün uyarsanız ana yarın dəxi biləsiz (6,41 a).

Həzirei-Qüdsə çatanda firiştələr tez gəlib düşməsinə kömək edirlər, onun arxasından mürsəllər, nəbilər və digərləri buraya daxil olub, onlar üçün hazırlanmış minbər və kürsülərdə otururlar. Tanrı, Cəbrayıla pərdələri qaldırmasını əmr edir. "Qızıl yaqut"dan olan "əzəmət pərdəsi"ndən başqa bütün pərdələr açılır. Hər şeyin yaradanı olan, onlara "Mərhaba dostlarım" deyə xitab edərək "xoş gəldiniz" deyir. Mələklərə süfrə hazırlamalarını, cənnət içkilərindən təqdim etmələrini əmr edir. Buradakı gözəllikləri heç kim ağlına belə gətirə bilməz.

Bundan sonra Davud Peyğəmbər Allahın əmri ilə nurdan olan bir minbərin üzərinə çıxaraq o gözəl səsi ilə Zəbur oxuyur. Arxasınca da Hz.Peyğəmbər bir ulu minbərdə Tanrının bəxş etdiyi misilsiz səslə Rəhman surəsini oxumağa başlayır. Bu vaxta qədər uçmaqda olan sükut, səssizlik pozulur, Uçmaq əhli ilə birlikdə quşlar, ağaclar da zövq alırlar. Bu əsnada Allahın əmri ilə Cəbrayıl aradakı "əzəmət pərdəsi"ni qaldırır. Onun camalını gördüklərində taqətləri kəsilir və səcdəyə dururlar. Elə bu vaxt Tanrı onlara başlarını qaldırmalarını, bu günün ibadət günü deyil, əbəbi ilahi nemətlərə qovuşmaq günü olduğunu söyləyərək, vədlərini yerinə yetirdiyini cənnət əhlinə bəyan edir.

Çü vədə qılmışdum kim sizə bu mülki virəm,
Muxaləfətsüz uş itdüm o vədəm üzrə kərəm.
Həm idə qamunuz vüsalimə layiq,
Ki gördünüz nitəlirsiz cəmalümi bayiq (6,43 a).

Məsnəvinin geridə qalan son hissəsində şair Həzireyi-Qüdsdəki uçmaq həyatının xüsusiyyətləri, gözəllikləri üzərində duraraq onun dünya ilə müqayisəsini belə şərh edir:

Zəhi vüsal-ü bəqa kim fəna vü fürqatı yoq,
Zəhi cəmal ü biha kim firaq u həsrəti yoq.
Zəhi bahar u çəmən kim hazan u qışı yoq,
Zəhi sabah u zəhi gün ki gecə təşvişi yoq.
Zəhi dügün ki onun axırında matəm yoq,
Zəhi şəfarət ü sazı ki qüssə vü qəm yoq (6,43a).
***
Dəxi anun gibi tər-bağ u gülşən yoq
Ki bülbülündə məlal gülində dikən yoq (6,43 b).

**Nəticə**

Qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olar ki, şair təsvirlərlə yanaşı, dialoqlarda da, mahir söz ustasıdır, xüsusilə "cənnət"ə gedənlərin Həzireyi-Qüdsə qəbulu və oradakı həyatın çox möhtəşəm və rəngarəng şəkildə ifadə edilməsi dediklərimizi bir daha təsdiqləyir. "Həzireyi-Qüds" məsnəvisi Kamal Ümminin "Qırx Ərmağan"dan sonra, mənzum əsər və şərh məsələsində nə qədər təcrübəli olduğunu sərgiləyən gözəl əsərlərdən biridir.

**ƏDƏBİYYAT**

1.Banarlı N. S. Resimli Türk Edebiyatı Tarihi, Ic., İatanbul: Yedigün, 1987.
2. Bursalı T. Osmanlı Müellifleri, cI., İstanbul,H.1333.

3. Büyük Larousse. Sözlük ve Ansiklopedi. c. 10, İstanbul.
4. Gibb E. Y. W. A history of Ottoman Poetry, Londra, 1958, C1, S 46.411.
5. İslam ansiklopedisi, c. 9, 1994.
6.Kamal Ümmi. "Divan". AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. B-391.
7. Kastamonlu Latifi Tezkiresi, İstanbul 1314, s 286.
8. Kocatürk V. M. Türk Edebiyatı Tarihi. Ankara: Edebiyat yayınevi,1964.
9. Mengi M/ Eski türk edebiyatı tarihi. Ankara: 1999, 262+164
10. Türk dili ve edebiyatı ansiklopedisi, V., İstanbul: Pegah.

***AMEA Məhəmməd Füzuli adına**
***Əlyazmalar İnstitutunun böyük elmi işçisi***
***E-mail:ayselacalova@yahoo.com***

**Aysel Ajalova**

**KAMAL UMMI AND THE WORK OF "HAZIREYI QUDS"**

The literary work "Hazireyi Quds" by Kamal Ummi, the poet of the XV century, is one of the 2 mesnevies which were included in his "Divan". In the next world after the people of heaven and hell have departed from each other the God lets the devout people to settle in heaven- in Hezrei-Quds together with saints and shows his beautiful face to them. The mesnevi is also about the next world, heaven and the beauties of the life there. In the mesnevi the poet made use of various stylistic devices as well as the dialogues.

**Keywords:** *Kemal, manuscript, Jerusalem, divan, prophet*

**Айсель Ажалова**

**КАМАЛА УММИ И ПРОИЗВЕДЕНИЕ «ХАЗИРЕ-И ГУДС»**

Произведение «Хазире-и Гудс» является одним из двух месневи, включенных в содержание «Диван»а поэта XV века Камала Умми. После разделения в загробной жизни жителей рая и жителей ада, Аллах (Бог) вместе со святыми помещает в рай, т.е. в Хазире-и Гудс и благочестивых людей и показывает им своё лико. В произведении также описываются красоты загробной, райской и земной жизней. В этом месневи поэт на ряду с художественными средствами выражения использовал и диалог.

**Ключевые слова:** *Кемаль, рукопись, Иерусалим, диван, пророк.*

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 15.09.2024**
**Son daxilolma tarixi:12.10.2024**